BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaControl®-200 AER

Hava Artırıcı Beton Əlavəsi

## TƏSVİR

SikaControl®-200 AER, beton içərisində güclü, kiçik və yaxın aralıqlarla yerləşən sabit hava qabarcıqları yaradaraq betona əlavə qoruma təmin edən hava uducu əlavədir. Məhsul, hava tərkibinin betonda lazımı miqdara qədər artırılması və saxlanılması kimi tələblərin qarşılanması üçün xüsusi beton növlərində istifadə edilir.

## İSTİFADƏ YERLƏRİ

- Donma-Ərimə təsirlərinə məruz qalan betonlarda
- Yüngül beton istehsalında
- Sahə və Yol betonlarında
- Aşağı çökmə betonlarda hava miqdarını artırma və saxlama qabiliyyətinin təkmilləşdirilməsi; tərkibində yüksək karbon tərkibli uçucu kül olan betonların; böyük miqdarda incə materiallardan ibarət betonların; yüksək qələvi sementlərdən istifadə edərək hazırlanan betonların; yüksək temperaturlu betonların; və uzadılmış qarışdırma müddətli betonların istehsalında istifadə olunur.

## ÜSTÜNLÜKLƏRİ

- Optimal hava miqdarının betona daxil olması betonun keyfiyyətində aşağıdakı xüsusiyyətləri yaxşılaşdırır;
- Donma/ərimə dövrləri nəticəsində zədələnməyə və əridici duzlara qarşı artan müqavimət
- Azaldılmış keçiricilik - artan su keçirməzlik qabiliyyəti
- Azaldılmış seqreqasiya və ayrışma
- Təkmilləşdirilmiş plastiklik və işləmə qabiliyyəti
- Sabit hava artışı
- Bərkmiş betonda təkmilləşdirilmiş hava-boşluq sistemi

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- EN 934-2 : T5 standardının tələblərini qarşılayır
- AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Yağ spirti və ammonium duzlar |
| **Qablaşdırma** | 1000 kg- IBC qablaşdırma |
| **Görünüş və rəng** | Açıq qəhvəyi maye |
| **Saxlama Müddəti** | Doğru saxlama şərtlərində istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsul bağlı, zədələnməmiş, açılmamış qablaşdırmada, quru şəraitdə +5°C ilə +30°C arasında olan temperaturda, doğru anbarlama şərtlərində saxlanmalıdır. Birbaşa günəş işığından və dondan qorunmalıdır. Tövsiyə olunan saxlama şərtlərinə əməl edilməməsi məhsulun və ya qablaşdırmanın vaxtından əvvəl xarab olmasına səbəb ola bilər. |
| **Sıxlığı** | 0,98 – 1,03 kg/lt (+20°C-də) |
| **pH-Dəyəri** | 9,00 - 11,00 |

| | |
|---|---|
| **Cəmi Xlorid ion miqdarı** | ≤ 0.10 (by mass) |

## TEXNİKİ MƏLUMATLAR

**Betonlama təlimatı**

Betonun donma/ərimə dövrlərinin və buzəridici duzların mənfi təsirindən qorunmasının ən yaxşı yolu aşağıdakılardır:

- Bərkimiş betonda düzgün hava miqdarının təmin olunması;
- Hava boşluqlarının ölçüsü və aralarındakı məsafə baxımından uyğun hava boşluğu sistemi;
- Kafi beton möhkəmliyi.

Bu şərtlər, bərk agregatların istifadəsi və düzgün qarışdırma, yerləşdirmə, işləmə və kürlənmə üsullarının tətbiqi ilə mümkündür.
Hava miqdarına nəzarət, qarışığın uyğun tutarlığa (slump) gətirildikdən sonra, yerləşdirmə anında aparılan ölçmələr əsasında həyata keçirilməlidir.
Hava artırıcı əlavənin istifadə miqdarı tələb olunan hava miqdarından və digər amillərdən asılı olaraq dəyişir. Adətən hava artırıcı əlavənin miqdarı, su azaldıcı və bərkimə müddətini tənzimləyən digər beton əlavələrinin istifadəsi ilə azalır.
Əgər qeyri-adi dərəcədə az miqdarda hava artırıcı əlavə ilə adi hava səviyyəsinə nail olunursa və ya tələb olunan hava miqdarını əldə etmək üçün lazım olan SikaControl®-200 AER miqdarı nəzərə çarpacaq dərəcədə azalıbsa, bu dəyişiklik araşdırılmalıdır.
Belə hallarda xüsusilə aşağıdakılara əmin olmaq vacibdir:

- Betonun yerinə qoyulma nöqtəsində tərkibində kifayət qədər hava olması;
- Bərkimiş betonda uyğun hava boşluğu sistemi (boşluqlar arası məsafə amili) əldə olunması.

**Xüsusi tövsiyyə**

SikaControl®-200 AER əlavəsini beton qarışığına hava artırıcı əlavə üçün nəzərdə tutulmuş dozalama avadanlığı ilə əlavə edin və ya ±3% dəqiqliklə düzgün miqdarın təmin olunmasına imkan verən uyğun ölçü cihazı ilə əl ilə əlavə edin.
SikaControl®-200 AER qatqısı üçün standart istifadə nisbəti yoxdur.
Betonda müəyyən bir hava miqdarına nail olmaq üçün lazım olan hava artırıcı əlavənin miqdari betonun tərkib hissələrinin fərqliliyi səbəbindən əvvəlcədən dəqiq müəyyən edilə bilməz.
Betondakı hava miqdarına təsir edə biləcək amillər bunlardır:

- Su miqdarı
- Temperatur
- Sementin növü
- Qumun ölçüsü (fraksiyası)
- Qum/çınqıl nisbəti
- Slump (konsistensiya)
- Betonun daşınma və yerləşdirmə üsulu
- Uçucu kül kimi çox incə materialların istifadəsi və s.

SikaControl®-200 AER əlavəsinin istifadə miqdarı tələb olunan hava miqdarına bağlı olaraq sahə şərtləri əsasında müəyyən edilir.
Su azaldıcı və bərkimə müddətini tənzimləyən beton əlavələri istifadə olunan qarışımlarda, adi betona nisbətən daha az miqdarda SikaControl®-200 AER tələb olunur. Əgər istənilən hava miqdarına nail olmaq üçün lazım olan istifadə miqdarı adi hallardan xeyli çox və ya azdırsa, Sika Beton Texniki Xidmətləri Şöbəsi ilə məsləhətləşin.
Sınaq qarışığında hava miqdarını ölçün və istehsal qarışığında istənilən hava miqdarına nail olmaq üçün SikaControl®-200 AER qatqısının miqdarını artırın və ya azaldın.
İlk qarışığın hava miqdarını yoxlayın və lazım olarsa əlavə düzəlişlər edin. İş zamanı yuxarıdakı paraqrafda qeyd olunan amillər səbəbilə SikaControl®-200 AER istifadə miqdarında düzəlişlər tələb oluna bilər, tez-tez yoxlamalar aparmaq vacibdir.
İstifadə miqdarındakı düzəlişlər, beton yerləşdirmə anında qarışıqdakı hava miqdarına əsasən aparılmalıdır.

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Tövsiyyə olunan doza** | SikaControl®-200 AER, betonun tərkibində 3 – 8% aralığında hava miqdarına nail olunması məqsədilə hazırlanmışdır. Bu məhsul EN 197 standartına uyğun bütün sement növləri ilə uyğun şəkildə işləyir, lakin istifadə miqdarı dəyişə bilər.<br>İstifadə olunacaq SikaControl®-200 AER əlavəsinin miqdarı, real iş şəraitində tələb olunan hava miqdarından asılıdır. Sınaq qarışığında, hər 100 kq sement üçün 0,09 – 0,2 kq aralığında SikaControl®-200 AER istifadə edin və alınan nəticələrə əsasən tənzimləyin.<br>Daimi və optimal nəticə əldə etmək üçün hava artırıcı əlavə, nəmli, normal və ya yüngül qum fraksiyası (incə aqreqat) üzərinə dozalanmalıdır.<br>Əgər bu mümkün deyilsə, istehsalat şəraitində sınaqlar aparılaraq ən optimal dozalama üsulu müəyyənləşdirilməlidir.<br>Yüngül incə aqreqat istifadə edildikdə, hava sürükləyici qatqının ən uyğun əlavə etmə miqdarını müəyyən etmək üçün sahə testləri aparılmalıdır — bu, nəm incə aqreqat üzərində  və ya ilkin miqdar su ilə birlikdə ola bilər. |

## SİSTEM MƏLUMATI

| | |
|---|---|
| **Uyğunluq** | SikaControl®-200 AER, EN 197 standartına uyğun olan bütün sement növləri ilə istifadə oluna bilər. Əgər başqa xüsusi sement növləri ilə istifadə ediləcəksə, Sika Beton Texniki Xidmətləri Şöbəsi ilə əlaqə saxlanılmalıdır.<br>SikaControl®-200 AER digər qatqılarla əvvəlcədən qarışdırılmamalıdır. Əgər SikaControl®-200 AER əlavəsi olan beton qarışığında digər əlavələrdən də istifadə ediləcəksə, onlar ayrıca verilməlidir.<br>SikaControl®-200 AER aşağıdakı digər beton əlavələri və sistemlərlə uyğundur: Su azaldıcılar, yüksək təsirli su azaldıcılar, sürətləndiricilər, gecikdiricilər, sıxlaşdırıcılar, su itələyici əlavələr.<br>Həmçinin, hava sürükləyici Portland sementi ilə hazırlanmış betonda hava miqdarını artırır. Əgər belə komplementar (bir-birini tamamlayan) əlavələrin istifadəsi tələb olunursa, təchizatdan əvvəl mütləq laboratoriya sınaqları aparılmalı, hər bir əlavənin uyğun istifadə nisbəti müəyyən olunmalı alınan betonun yaş və bərkimiş vəziyyətdə uyğunluğu qiymətləndirilməlidir. Belə hallarda, əlavə tövsiyə və dəstək üçün Sika Beton Texniki Xidmətləri Şöbəsinə müraciət etməyiniz tövsiyə olunur.<br>SikaControl®-200 AER əlavəsinin Sika® Plastiment® qatqıları ilə birlikdə istifadəsi, yüksək keyfiyyətli normal və ya yüngül beton istehsalı üçün ideal birləşmə yaradır. Qeyd edək ki, ağır betonlar (heavyweight concrete) adətən hava tərkibli olmur, yəni bu tip betonlarda hava artırıcı istifadə edilmir. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12